Dağıstan Respublikasının Milli siyasət və dini işlər üzrə nazirliyin sifarişi üzrə hazırlanmışdır

# Dağıstan Respublikasının ərazisinə gələn xarici vətəndaşlar üçün

# Məlumat materialları

2021

# Mündəricat

Rusiya Federasiyasının sərhədini keçmə qaydaları ............................4

Miqrasiya qeydiyyatının həyata keçirilməsi ......................................6

Əmək fəaliyyətini həyata keçirmək hüququnu təsdiq edən sənədlərin əldə edilməsinin qaydası ....................................................................9

Miqrasiya qanunvericiliyinin pozulmasına görə məsuliyyət .........16

Xarici vətəndaşlar üçün təhsil sahəsində dövlət xidmətləri ...........21

Xarici vətəndaşlara tibbi xidmətin göstərilməsi ..............................26

Xarici vətəndaşların polis ilə qarşılıqlı əlaqələri ............................28

Rusiyada və Dağıstan Respublikasında xarici vətəndaşların adaptasiyası ........................................................................................30

Xarici vətəndaşlara pulsuz kömək və hüquqi dəstəyi göstərən dövlət və ictimai təşkilatlar ........................................................................33

Pulsuz konsultasiya və hüquqi köməyin əldə edilməsinin qaydalar...36

Xarici vətəndaşlar üçün dövlət elektron resursları..........................38

Dağıstan Respublikasında davranışın etikası..................................40

Rusiyaya iş, müvəqqəti yaşayış, təhsil almaq üçün və ya sadəcə turist kimi yola düşməzdən əvvəl, Rusiya Federasiyasının ərazisində və xüsusən Dağıstan Respublikasında, qalmağın ümumi qaydalarıyla tanış olmaq lazımdır.

## Rusiya Federasiyasının sərhədini keçmə qaydaları

Rusiya Federasiyasının dövlət sərhəd buraxılış məntəqəsində doldurulmuş miqrasiya kartını təqdim etmək lazımdır.

Rusiya Federasiyasına giriş vaxtı miqrasiya kartların blankları xarici vətəndaşlara nəqliyyat xidmətlərini (uzaq məsafəli qatarlarının, təyyarələrin, dəniz və çay gəmilərin və s. xidmət personalı tərəfindən) göstərən təşkilatların nümayəndələri tərəfindən pulsuz verilir. Əgər xarici vətəndaş şəxsi nəqliyyatda və ya piyada gəlirsə, onda miqrasiya kartı sərhəd xidməti tərəfindən verilir.

Təyyarədə gəlməsi təqdirdə, xarici vətəndaşa artıq doldurulmuş miqrasiya kartı verilir. Onda göstərilmiş informasiyanı yalnız yoxlamağa qalır. Zəruri olduqda sərhəd xidmətinin əməkdaşlarına müraciət etmək lazımdır ki, onlar düzəlişləri daxil etsinlər.

Miqrasiya kartı rus dilində doldurulmuş olmalıdır. Şəxsiyyəti təsdiqləyən pasportda və ya başqa sənəddə göstərilmiş məlumatlara əsasən latın əlifbasının hərflərlə doldurulmasına icazə verilir.

Blankda aşağıdaki məlumatlar göstərilməlidir:

- Xarici vətəndaşın adı və soyadı, mövcud olduqda atasının adı;
- Doğum tarixi və cinsi;
- Vətəndaşlıq;

• Gəlmənin məqsədi (turizm, təhsil, iş, ticarət səfəri və s.);

• Qalmağın müddəti (RF qalmağın başlanğıcı və başa çatmasının günü, ayı və ili).

Miqrasiya kartının hər iki hissəsini doldurmaq lazımdır. «Girişin məqsədi» qrafası mütləqdir, orada lazımlı sözün altında xətt çəkmək lazımdır.

Miqrasiya kartı iki hissədən ibarətdir — «A» və «B». Miqrasiya kartının «A» hissəsi dövlət sərhədini keçmək üçün sərhəd — buraxılış məntəqəsinin əməkdaşlarında qalır. «B» hissəsi xarici vətəndaşa qaytarılır. Rusiya Federasiyasına giriş haqqında qeyd sərhəd — buraxılış məntəqəsinin əməkdaşları tərəfindən miqrasiya kartının «B» hissəsinin əks tərəfində vurulur.

Miqrasiya kartının itirilməsi və ya zədələnməsi təqdirdə xarici vətəndaş itirilmiş və ya zədələnmiş miqarsiya kartının dublikatını əldə etmək məqsədilə 3 gün ərzində bu haqda öz yaşadığı yeri üzrə ən yaxın Rusiyanın DİN Miqrasiya məsələləri üzrə Baş idarəsinin ərazi bölməsinə müraciət etməlidir. Bu halda o Rusiya Federasiyasına girdiyi sənədləri təqdim etməlidir. Miqrasiya kartının dublikatı pulsuz verilir.

## Miqrasiya qeydiyyatının həyata keçirilməsi

Rusiya Federasiyasının ərazisinə girişdən sonra xarici vətəndaşa 7 gün ərzində qaldığı yeri üzrə qeydiyyata durmaq lazımdır. Bunu Rusiyanın DİN Miqrasiya məsələləri üzrə Baş idarənin ərazi bölməsində etmək lazımdır. Bəzi ölkələr üçün qeydiyyata durmağın başqa müddəti nəzərdə tutulmuşdur. Belə ki, Tacikistan vətəndaşları üçün – bu 15 gün; Belarus, Ermənistan, Qazaxıstan və Qırğızıstan vətəndaşları üçün isə 30 gündür.

Bilmək lazımdır ki,  xarici vətəndaşa hansısa təşkilatlara müraciət etmək lazım deyil, miqrasiya qeydiyyatına götürülməsi üzrə bütün prosedurları Qəbul edən tərəf həyata keçirir.

Xarici vətəndaş qaldığı yerə gələndən sonra öz pasportunu və miqrasiya kartını Qəbul edən tərəfə təqdim edir. Bu halda pasportun və miqrasiya kartının götürülməsi yolverilməzdir.

Qəbul edən tərəf Rusiya vətəndaşları, həm də Rusiya Federasiyasında daimi yaşayan xarici vətəndaşlar və ya vətəndaşlığı olmayan şəxslər (yaşamaq üçün sənədə malik olanlar), həmçinin hüquqi şəxslər, onların, xarici vətəndaşın faktiki olaraq yaşadığı və ya işlədiyi filialları və ya nümayəndəlikləri ola bilərlər.

Xarici vətəndaşın mehmanxanada qaldığı halda, Qəbul edən tərəf mehmanxana administrasiyası sayılır, hansı ki, gün ərzində xarici vətəndaşın gəlməsi haqqında Rusiyanın DİN miqrasiya məsələləri üzrə Baş idarənin ərazi orqanına bu haqda xəbər verir, həmçinin xarici vətəndaşlarla bağlı bütün lazımlı hərəkətləri yerinə yetirir və qalmağın qaydalarına riayət etməsinə görə məsuliyyət daşıyır.

Xarici vətəndaş tərəfindən təqdim edilmiş sənədlərinə əsasən,

qəbul edən tərəf tərəfindən xarici vətəndaşın qaldığı yerə gəlməsi haqqında xüsusi xarici vətəndaşın gəlməsi haqqında xəbərdarlıq blankı doldurulur (sonra — Xəbərdarlıq). Bu blank, həmçinin pasportun və miqrasiya kartının surəti bir gün ərzində Rusiyanın DİN miqrasiya məsələləri üzrə Baş idarənin ərazi bölməsinə göndərilir. Qəbul edən tərəf bunu şəxsən və ya poçtla göndərməklə yerinə yetirə bilər. Miqrasiya qeydiyyatına götürülməsi üçün dövlət vergisi yığılmır.

Qəbul edən tərəf xarici vətəndaşa Xəbərdarlığın kəsilən hissəsini verir. Xarici vətəndaşda Xəbərdarlığın kəsilən hissəsi ilə qoyulan qeydin mövcudluğu onun miqrasiya qeydiyyatına götürülməsini təsdiq edir.

Qanunvericiliklə, xarici vətəndaş öz gəlməsi haqqında miqrasiya qeydiyyatı orqanlara müstəqil olaraq xəbər edə biləcək hallar nəzərdə tutulmuşdur:

- Qəbul edən tərəf xəbərdarlığı müstəqil göndərə bilmədiyi təqdirdə, sənədlərə əsaslanan təsdiq edilmiş üzrlü səbəblər mövcuddursa;
- Əgər xarici vətəndaş Rusiya Federasiyasının ərazisində daimi yaşayırsa, o qəbul edən tərəfin yazılı razılığından sonra öz gəlməsi haqqında müvafiq miqrasiya qeydiyyatı orqana müstəqil olaraq xəbər verməyə haqqına sahibdir.

Gediş vaxtı xarici vətəndaş Xəbərdarlığın kəsilən hissəsini Qəbul edən tərəfə verməlidir. Sonra, gedişdən sonra iki gün ərzində, qəbul edən tərəf bilavasitə və ya poçt vasitəsilə onu Rusiyanın DİN miqrasiya məsələləri üzrə Baş idarənin ərazi bölməsinə təqdim edir.

Rusiya Federasiyasına vizanın əldə etməsini tələb etməyən qaydasında gəlmiş xarici vətəndaşın müvəqqəti yaşamağın müddəti,

Rusiya Federasiyasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, doxsan gündən çox ola bilməz.

Xarici vətəndaş yaşamağa icazə verilmiş müddətinin başa çatmasından sonra Rusiya Federasiyasından çıxmalıdır. Vizanın müddətinin və ya yaşamaq müddətinin uzadılması üçün qabaqcadan yuxarıda göstərilən müddətin başa çatmasına qədər, miqrasiya kontrolu orqanlarına müraciət etmək lazımdır.

## Əmək fəaliyyətini həyata keçirmək hüququnu təsdiq edən sənədlərin əldə edilməsinin qaydası

Xarici vətəndaş yalnız iş icazənin mövcudluğu və 18 yaşa çattığı təqdirdə həyata keçirmək hüququna malikdir. Lakin xarici vətəndaşların bəzi kateqoriyaları icazə sənədləri olmadan işləmək hüququna malikdirlər:

• RF qanuni statuslara malik olanlar — MYQ və ya DYİ;

• Köçürülmə üzrə dövlət proqramın iştirakçısı statusuna malik olan insanlar;

• Jurnalistlər, əgər onlar RF icazə alıblarsa;

• Rusiya ali məktəblərində, texnikumlarda, kolleclərdə təhsil alan və tətillərdə əlavə işləyən və ya təhsildən azad olan vaxtlada təhsil aldıqları müəssisələrdə işləyən tələbələr;

• Qaçqın statusunun sahibləri, və ya müvəqqəti sığınacağa malik olanlar;

• Müəyyən şərtlərə riayət etmə tərdirdə dəvət edilmiş elmi, pedaqoji, tibbi və yaradıcılıq işçiləri;

• Belorusiya, Qazaxıstan, Qırğızıstan və Ermənistan (AAİB ölkələrinin gömrük şurasına daxil olanlar ölkələri) vətəndaşları.

Əgər xarici vətəndaş yuxarıda göstərilən statuslardan heç birinə aid deyilsə, onda əmək fəaliyyətinin həyata keçirilməsi üçün aşağıdaki sənədləri almalıdır:

- patent (vizasız qayda üzrə RF gələn xarici vətəndaş üçün);
- iş icazəsi (viza qaydası üzrə RF gələn xarici vətəndaş üçün).

İş üçün patent xarici vətəndaş tərəfindən DİN RD üzrə miqrasiya məsələləri üzrə İdarəyə şəxsən və ya giriş anından 30 təqvim günü

ərzində səlahiyyət verilmiş təşkilat vasitəsilə verilir.

Patentin rəsmiləşdirilməsi üçün aşağıdaki sənədləri hazırlamaq lazımdır:

• patentin verilməsi haqqında ərizə;

• şəxsiyyəti təsdiqləyən sənəd;

• könüllü tibbi sığorta polisi və ya pullu tibbi xidmətlərin verilməsi haqqında müqavilə;

• təhlükəli xəstəliklərin mövcud olmadığı haqqında arayış;

• rus dilini, Rusiyanın tarixinin və Rusiya Federasiyasının qanunvericiliyinin əsaslarının biliməsini təsdiq edən sənəd;

• giriş məqsədi göstərilən miqrasiya kartı – «İŞ»;

• miqrasiya qeydiyyatına götürülməsi haqqında sənəd;

• patentin rəsmiləşdirilməsi üçün sənədlərin verməsi müddətin pozulması halında cərimənin ödənişi haqqında qəbz verilir (10-dan 15 minə qədər rubl).

Bütün sənədlərin verməsindən sonra 10 iş günü ərzində hazır patent verilir və icbari dövlət daktiloskopik qeydiyyatı aparılır və foto şəkil çəkilir.

**İş üçün patentin etibarlıq müddəti və qiyməti**.

İş üçün patent 1 aydan 12 ayadək müddətinə verilir. 12 aydan sonra bir dəfə Rusiya Federasiyasından çıxmamaq şərti ilə patentin yenidən əldə edilməsi imkanı var.

Patentin ödənişi müəyyən edilmiş avans ödənişi şəklində hər ay və ya daha uzunsürən müddətə yerinə yetirilir.

2021 ildə Dağıstan Respublikası üzrə patentin qiyməti 3803 rubl təşkil edir.

Yalnız patentin təhvil alınmasından sonra xarici vətəndaşda

patentdə göstərilmiş ixsisas üzrə və göstərilən regionda rəsmən işləməyə başlamaq imkanı yaranır.

Hüquqi şəxsdə əmək fəaliyyətini həyata keçirən xarici vətəndaş patentin verilməsi günündən iki ay ərzində, patenti vermiş Rusiyanın DİN ərazi orqanının miqrasiya məsələləri üzrə bölməyə şəxsən və ya sifarişli poçt məktubun vasitəsilə işlərin (xidmətlərin göstərilməsi) icra edilməsi haqqında əmək müqaviləsinin və ya vətəndaş-hüquqi müqaviləsinin surətini göndərməli və ya şəxsən təqdim etməlidir. Bunu etmədiyi təqdirdə, patent ləğv ediləcək.

İşə götürən isə öz növbəsində FMX xarici vətəndaşla əmək müqaviləsinin bağlanması haqqında xəbərdarlıq və xarici vətəndaşın işə düzəltməsi haqqında müvafiq orqanlara xəbər göndərməlidir. Həmçinin işə götürən xarici vətəndaş işçidən işə düzəlməsi üçün FŞHSN və VÖEN kimi sənədləri tələb etməlidir.

Patentin əldə edilməsindən sonra xarici vətəndaşa icbari surətdə aylıq avans ödənişlərini ödəməlidir. Gecikdirilmə təqdirdə, hətta 1 gün olsa belə, patent avtomatik ləğv edilir.

Yuxarıda qeyd edildiyi kimi, viza qaydasında gələn bütün xarici vətəndaşlar iş icazəsini almalıdırlar.

Bunun üçün xarici vətəndaşa müəyyən edilmiş forma üzrə işə icazəsinin verilməsi haqqında ərizəylə miqrasiya qeydiyyatına götürülməsi yeri üzrə Rusiyanın DİN miqrasiya məsələləri üzrə Baş idarənin ərazi bölməsinə müraciət etmək lazımdır.

Ərizəylə birlikdə aşağıdaki sənədləri vermək lazımdır:

• ərizənin surəti;

• 30×40 mm ölçüdə rəngli fotoşəkil;

• xarici vətəndaşın şəxsiyyətini təsdiqləyən və Rusiya Federasiyası

tərəfindən  tanınan sənəd;

• sərhəd kontrolu məntəqəsinin qeydi ilə miqrasiya kartı;

• xarici vətəndaşa iş icazəsinin verilməsi üçün dövlət rüsumunun ödənişi haqqında qəbz.

*İcazədə göstərilir:* sahibinin soyadı, adı, atasının adı, pasportun rekvizitləri, doğum tarixi, təşkilatın adı, xarici vətəndaşa işləməyə icazə verilən RF regionu. İcazə blankın seriya, nömrəsi və müddəti vardır. İş icazəsini almış xarici vətəndaşın icazədə göstərilmiş regiondan kənarda və başqa peşə üzrə əmək fəaliyyətini həyata keçirmə hüququ yoxdur. Bu qaydalara riayət etməməsinə görə xarici vətəndaş inzibati məsuliyyətə cəlb olunur və RF ərazisindən deportasiya oluna bilər və ona verilmiş iş icazəsi isə — ləğv edilə bilər.

Əgər iş icazəsi xarici vətəndaşa 90 gündən çox müddətinə verilibsə, o belə icazənin əldə edilməsi günündən 30 gün ərzində Rusiyanın DİN miqrasiya məsələləri üzrə Baş idarənin ərazi bölməsinə mütləq şəkildə təqdim etməlidir:

• narkomaniya xəstəliyin mövcud olmamasını təsdiq edən sənədlər;

• ətrafdındakilərə təhlükə yarada biləcək yoluxucu xəstəliklərin mövcud olmamasını təsdiq edən sənədlər,  (cüzam (Qansen xəstəliyi), vərəm, sifilis, xlamidiynaya limfoqranulema, şankroid);

• insanın immun çatışmamazlığının virusuna səbəb olunan (İÇV - infeksiyası) xəstəliyin mövcud olmadığı haqqında sertifikat.

Əgər xarici vətəndaş müəyyən edilmiş müddət ərzində lazımlı tibbi sənədləri təqdim etmədisə, onda ona verilmiş iş icazəsi ləğv edilir və işə götürən onunla əmək və ya vətəndaş hüquqi müqaviləsini pozmalıdır.

İş icazəsi, patentdən fərqli olaraq, RF nazirlər kabineti tərəfindən

təyin edilmiş kvotanın daxilində xarici vətəndaşa verilir. Kvotalar yayılmayan ixsisaslar siyahısı mövcuddur. Bir qayda olaraq, bu idarəci vəzifələridir.

İş icazəsinin verilməsi üçün dövlət rüsumu *3500 rubl* təşkil edir.

Xarici vətəndaşdan ona işə icazə ərizənin qəbulunun rədd edilməsi xarici vətəndaş tərəfindən bu bənddə göstərilmiş sənədlərin təqdim etməməsi hallarından başqa yolverilməzdir.

Rusiyanın DİN miqrasiya məsələləri üzrə Baş idarənin ərazi bölməsinin səlahiyyətli vəzifəli şəxsi ərizəni qeydiyyata alır, onun üzərində qeydiyyat nömrəsini qoyur və ərizəçiyə onun qəbul tarixi haqqında qeydlə ərizəsinin surətini verir.

İş icazəsi Rusiyanın DİN miqrasiya məsələləri üzrə Baş idarənin ərazi bölməsi tərəfindən yuxarıda göstərilən sənədlərin təqdim etməsindən sonra 10 iş günündən gec olmadan, işə icazənin verilməsi və mötəbər olmayan və ya təhrif edilmiş məlumatların təqdim edilmiş sənədləri haqqında ərizədə məlumat olmadığı halda verilir. Əgər iş icazəsinin əldə edilməsi üçün Rusiyanın DİN miqrasiya məsələləri üzrə Baş idarənin ərazi bölməsinə müraciəti vaxtı xarici vətəndaş konkret iş yerinə malik deyilsə, onda o Rusiya Federasiyasının müvafiq subyektində əhalinin məşğulluq məsələləri üzrə icra hakimiyyəti orqanına işə düzəltmədə köməyə görə müraciət edə bilər.

Rusiya Federasiyasının ərazisinə giriş tarixindən 90 gündən artıq iş icazəsini almış xarici vətəndaşın 90 gün müddəti başa çatmasına qədər iş tapması lazımdır, əks halda o, 90 gündən artıq olan iş icazəsinə baxmayaraq Rusiya Federasiyasından çıxmalıdır.

**İş icazəsi müddətinin uzadılması.**

Zəruri olduqda xarici vətəndaş iş icazəsi müddətini uzatmaq

imkanına malikdir. Bunun üçün o müvəqqəti yaşadığı yeri üzrə qeydiyyata götürülməsi haqqında xəbərdarlıqda göstərilmiş müvəqqəti yaşayış müddətinin başa çatmasına qədər Rusiyanın DİN miqrasiya məsələləri üzrə Baş idarənin ərazi bölməsinə müraciət etməlidir və təzə müddətə iş icazəsini almalıdır.

Əgər xarici vətəndaş iş icazəsinin müddətinin uzadılmasına görə müraciət etmədisə, o 2 500 — 5 000 rubl məbləğində cərimə ödənilməsi kimi inzibati məsuliyyətə cəlb edilir və bəzi hallarda — ona qarşı inzibati deportasiya tətbiq edilir. Bu təqdirdə inzibati deportasiyaya məruz qalan xarici vətəndaşa beş il müddətinə qədər Rusiya Federasiyasına girişinə qadağa qoyula bilər.

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi.**

Patentin və ya işə icazəsini aldıqdan sonra, xarici vətəndaşa əmək müqaviləsini bağlamaq imkanı verilir. İşə qəbul vaxtı, xarici vətəndaşlar, rusiya vətəndaşları kimi, praktiki olaraq eyni sənədləri təqdim etməlidirlər:

- şəxsiyyəti təsdiqləyən pasport və ya başqa sənəd, (müvəqqəti yaşayışa icazə, yaşamaq üçün sənəd və başqa);
- miqrasiya kartını, vizanı, iş icazəsini və ya patenti (müvəqqəti gələn əcnəbilər üçün);
- əmək kitabçası, əgər yoxdursa - onu rəsmiləşdirmək;
- icbari pensiya sığortasının sığorta şəhadətnaməsi;
- RF ərazisində qüvvədə olan, könüllü tibbi sığorta müqaviləsi (polisi);
- təhsil haqqında , ixtisaslaşdırma və ya xüsusi biliklərin mövcudluğu haqqında sənəd - işə daxil olma vaxtı xüsusi bilikləri və ya xüsusi hazırlığı tələb edən.

Əmək və ya vətəndaş- hüquqi müqaviləsinin bağlanmasından sonra işə götürən və ya işlərin (xidmətlər) sifarişçisi bu haqda Rusiya Federasiyasının müvafiq subyektinin məşğulluq ərazi orqanına xəbər etməlidir və Rusiya Federasiyasının ərazisində xarici vətəndaşın yaşamaq müddətinin uzadılması üçün belə müqavilənin müddətini göstərməlidir. Yaşamaq müddətinin uzadılması haqqında xəbərdarlıqdan sonra xarici vətəndaş iş icazəsinin müddəti ərzində Rusiya Federasiyasının ərazisində olmaq hüququna malikdir.

Xəbərdarlığın ikinci kəsilən hissəsini işə götürən və ya işlərin (xidmətlər) sifarişçisi xarici vətəndaşa verməlidir.

Yeni əmək müqaviləsinin bağlanma vaxtı işə götürən yenidən yeni əmək müqaviləsinin xarici işçisi tərəfindən bağlanması haqqında Rusiyanın DİN miqrasiya məsələləri üzrə Baş idarənin ərazi bölməsinə xəbər etməlidir və ona müvafiq qeydlər ilə xəbərdarlığın yeni blankının kəsilən hissəsini verməlidir.

## Miqrasiya qanunvericiliyinin pozulmasına görə məsuliyyət

Xarici vətəndaşlar tərəfindən miqrasiya sahəsində qanunların pozulmasına görə ciddi məsuliyyət nəzərdə tutulmuşdur.

RF miqrasiya qanunvericiliyinin pozulması üçün məsuliyyəti tənzimləyən rəsmi sənədlər:

- «Rusiya Federasiyasına giriş və Rusiya Federasiyasından çıxış qaydaları haqqında» (15.08.1996 N 114-FQ federal qanunu);
- Rusiya Federasiyasının inzibati qanun pozuntuları Məcəlləsi (Rusiya Federasiyasının KoAP-ı);
- Rusiya Federasiyasının Cinayət Məcəlləsi (RF CM) cinayət məcəlləsi;
- Rusiya Federasiyasının nazirlər kabinetinin 14 yanvar 2015 il tarixli 12 №-li «Xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs barəsində Rusiya Federasiyasına girişinə qadağa qoyulması haqqında qərarın qəbul olunması qaydaları» qərarı.

Rusiya Federasiyasının miqrasiya qanunvericiliyini pozmuş xarici vətəndaş məsuliyyətə cəlb edilmiş ola bilər:

- RF girişinə qadağanın qoyulması qərarı;
- inzibati qanun pozuntusu haqqında iş üzrə qərarın qəbul edilməsi;
- cinayət işi üzrə qərarın qəbul edilməsi.

**Miqrasiya qeydiyyatının qaydaların pozulması.**

Xarici vətəndaşın yaşayış yeri üzrə qeydiyyat haqqında ərizənin vaxtından gec verməsi üçün RF KoAp 18.8 m. 1 h. uyğun olaraq inzibati məsuliyyət nəzərdə tutulmuşdur – Rusiya Federasiyasının

ərazisindən inzibati deportasiya və ya deportasiya olmadan 2000 rubldan 5000 rubla qədər məbləğdə inzibati cərimənin qoyulması.

Əgər miqrasiya qeydiyyatının həyata keçirilməsi vaxtı xarici vətəndaş tərəfindən və ya vətəndaşlığı olmayan şəxs tərəfindən qəsdən yanlış məlumatlar və ya saxta sənədləri verilirsə, Rusiya Federasiyasının ərazisindən inzibati deportasiya və ya deportasiya olmadan *2000 rubldan 5000 rubla* qədər məbləğdə inzibati cərimənin qoyulması.

Xarici vətəndaşda Rusiya Federasiyasında yaşama hüququnu təsdiq edən sənədlərin mövcud olamaması və ya itirilməsi təqdirdə və müvafiq orqana onların itirilməsi haqqında ərizənin verməməsinə və ya qalmağın müəyyən müddətindən sonra Rusiya Federasiyasından getmədən boyun qaçırması təqdirdə Rusiya Federasiyasının ərazisindən inzibati deportasiya və ya deportasiya olmadan *2000 rubldan 5000 rubla* qədər məbləğdə inzibati cərimənin qoyulması.

*2000 rubldan 5000 rubla* qədər inzibati cərimə həmçinin aşağıdakı hallarda nəzərdə tutulmuşdur:

- Rusiya Federasiyasında qalmağın (yaşamasının) rejimini xarici vətəndaş tərəfindən riayət etməməsi təqdirdə, xüsusi halda RF girişin məqsədlərin RF qalmağı (yaşaması) dövründə faktiki olaraq fəaliyyətin və ya məşğuliyyət növünə uyğun olmaması həyata keçiriləndə;
- qalmağın müəyyən müddətindən sonra xarici vətəndaşın RF ərazisindən vaxtından gec getməsi halında.

Xarici vətəndaşın qaldığı yerinə gəlməsi haqqında xəbərdarlığın vaxtından gec təqdim edilməsi *2000 rubldan 4000 rubla* qədər məbləğdə inzibati cərimənin qoyulmasına gətirib çıxarır.

**Əmək miqrantların məsuliyyəti.**

Xarici vətəndaş tərəfindən və ya vətəndaşlığı olmayan şəxs tərəfindən patentin verilməsi üçün müraciətin müddətinin pozması, əgər belə müddət federal qanununa uyğun olaraq təyin edilmişdirsə, 15000 rubdan 10000 rubla qədər məbləğdə inzibati cərimənin qoyulmasına gətirib çıxarır.

xarici vətəndaşın 2000 rubldan 5000 rubla qədər cərimə şəklində məsuliyyəti aşağıdaki hallarda nəzərdə tutulmuşdur:

- xarici vətəndaşın və ya vətəndaşlığı olmayan şəxsin onlarda iş icazələri və ya patentin mövcud olmadıqları halında Rusiya Federasiyasında əmək fəaliyyətinə cəlb edilməsi;
- xarici vətəndaş tərəfindən və ya vətəndaşlığı olmayan şəxs tərəfindən iş icazəsində və ya patentdə göstərilməmiş peşə üzrə əmək fəaliyyətinin həyata keçirilməsi (ixsisaslar, vəzifələr, əmək fəaliyyətinin növü), əgər iş icazəsi və ya patentə peşə haqqında məlumatları mövcuddursa (ixsisas, vəzifə, əmək fəaliyyətinin növü);
- Rusiya Federasiyasının subyektindən ərazisindən kənar xarici vətəndaşın və ya vətəndaşlığı olmayan şəxsin əmək fəaliyyətinə cəlb edilməsi, hansının ki, ərazisində iş icazəsi bu xarici vətəndaşa və ya vətəndaşlığı olmayan şəxsə verilmişdir, patent və ya müvəqqəti yaşayış icazə verilmişdir;
- Rusiya Federasiyasında xarici vətəndaşın və ya vətəndaşlığı olmayan şəxsi əmək fəaliyyətinə cəlb etməsi üzrə lazımlı qaydada xarici vətəndaşın və ya vətəndaşlığı olmayan şəxsi və xarici işçilərdən istifadəyə icazəsi olmadan, əgər belə icazə federal qanununa uyğun olaraq tələb olunursa;

- xəbər verməmə və ya miqrasiya sahəsində nəzarət icra hakimiyyəti orqanının xəbərdarlığı (formanın) qaydaların pozulması xarici vətəndaşla işlərin (xidmətlərin göstərilməsi) icra edilməsinə əmək müqaviləsinin və ya vətəndaş-hüquqi müqaviləsinin dayandırılması (pozulması) təqdirdə, tarixindən ötən 3 iş günü ərzində, müqavilənin dayandırılmasının (pozulması), əgər belə xəbərdarlıq federal qanununa uyğun olaraq tələb olunursa.

Əgər xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs iş icazəsində və ya patentdə olan məlumatlara dəyişikliklərin daxil etməsinin müddətini pozursa və ya göstərilən dəyişikliklərin daxil etməsinə görə müraciət etmirsə, onda bu 4000 rubldan 5000 rubla qədər inzibati cəriməyə gətirib çıxara bilər.

Bir il ərzində təkrar xarici vətəndaş tərəfindən və ya vətəndaşlığı olmayan şəxs tərəfindən inzibati qanun pozuntusunun etməsi Rusiya Federasiyasının ərazisindən inzibati deportasiyaya və 5000 rubldan 7000 rubla qədər məbləğdə inzibati cərimənin verilməsinə gətirib çıxara bilər.

**Xarici vətəndaşların cinayət məsuliyyəti.**

Xarici vətəndaşlar Rusiya Federasiyasında cinayətin törədilməsinə görə onun ərazisindən çıxaraq cinayət məsuliyyətinə cəlb edilmiş ola bilərlər.

RF Cinayət-prosessual məcəlləsinin 458 maddəsinə uyğun olaraq, xarici vətəndaş tərəfindən Rusiya Federasiyasının ərazisində cinayətin törədilməsi halında, sonradan onun ərazisindən kənarda olan və Rusiya Federasiyasının ərazisində onun iştirakıyla prosessual hərəkətlərin icaraatının qeyri-mümkünlüyü təqdirdə, cinayət iş üzrə qaldırılan və araşdırılan bütün materiallar Rusiya Federasiyasının

Baş prokurorluğuna ötürülür, hansı ki, həmin organ cinayət təqibinin həyata keçirilməsi üçün xarici dövlətin səlahiyyətli orqanlarına lazımlı məlumatı göndərmə haqqında məsələni həll edir.

## Xarici vətəndaşlar üçün təhsil sahəsində dövlət xidmətləri

Xarici vətəndaşlar, Rusiya Federasiyasının beynəlxalq müqavilələrinə uyğun olaraq, federal büdcənin, Rusiya Federasiyasının və ya yerli büdcələrin subyektlərinin büdcələrin, büdcə təxsisatlarının hesabına orta peşə təhsilinin, ali təhsilin və əlavə peşə təhsilinin əldə edilməsi hüququna malikdirlər.

Rusiya Federasiyasında təlimin aşağıdaki formaları təklif edilmiş ola bilər:

- Müqavilə üzrə təhsil;
- Dövlət təqaüdü (RF nazirlər kabinetin kvotası);
- Rusiya Federasiyası vətəndaşlarıyla bərabər hüquqlarda (ümumi şərtlərdə, konkurs əsasında) təhsil.

Müqavilə üzrə təhsil bütün ölkələrin vətəndaşları istisnasız fiziki (qəbul olanların şəxsi vasitələri) və hüquqi şəxsləri (sponsorlar – şirkətlər, fondlar, qrant şirkətləri) vasitələrin hesabına alma hüququna malikdirlər.

Dövlət təqaüdü büdcə vasitələrinin hesabına təhsili nəzərdə tutur və xarici vətəndaşlara yayılır, hansılara ki, cari tədris ilində kvota ayırılmışdır. Bu proqram həmçinin xaricdə yaşayan həmyerlilərə yayılır. Kvotaların mövcudluğu və sənədlərin verməsinin qaydaları haqqında informasiyanı Rossəməkdaşlıq nümayəndəliyində, həmçinin xarici dövlətlərin Rusiya səfirliklərində  öyrənmək olar.

Ümumi şərtlərdə büdcə vasitələrinin hesabına vətəndaşların aşağıdaki kateqoriyaları təhsil ala bilərlər:

- Azərbaycan Respublikası, Qırğız respublikası, Ukrayna,

Gürcüstan, Türkmənistan, Ermənistan Respublikası, Belarus, Qazaxıstan, Moldova, Tacikistan, Özbəkistan, ali məktəbə daxil olma vaxtı Rusiyanın ərazisində daim yaşayan vətəndaşları;

- Qırğız respublikası, Belarus, Qazaxıstan, Tacikistan respublikalarının öz ölkələrinin ərazisində yaşayan vətəndaşları;
- xaricdə yaşayan həmyerlilər;
- mühacirlər, yəni RF könüllü köçürülmə üzrə dövlət proqramının iştirakçıları.

Rusiya hökuməti tərəfindən maliyyələşdirilən büdcə yerlərinə daxil olmanın üç variantı mövcuddur. Namizədlər:

1. Rusiyada və ya xaricdə keçirilən olimpiadalardan birinin qalibi olmaq;
2. VDİ və ya qəbul imtahanlarını vermək;
3. dövlət təqaüdə (kvota) müsabiqə seçməsindən keçmək.

RF ərazisində təhsil almağı arzu edən xarici vətəndaşlara ali təhsil müəssisəsinə aşağıdaki sənədləri vermək lazımdır:

- ixsisasın tam adı göstərilən anket;
- lazımlı qaydada təsdiqlənmiş təhsil haqqında şəhadətnamənin (sənədin) surəti, öyrənilmiş predmetlərin göstərməklə və onlar üzrə imtahanlarda əldə edilən qiymətlər (ballar);
- göndərən ölkənin, səhiyyəsinin rəsmi orqanı tərəfindən təsdiqlənmiş tibbi rəy;
- göndərən ölkənin, səhiyyəsinin rəsmi orqanı tərəfindən təsdiqlənmiş hiv-infeksiyanın mövcüd olmamağı haqqında sertifikat;
- lazımlı qaydada təsdiqlənmiş doğum haqqında şəhadətnamənin surəti;

- 4 x 6 sm ölçüdə 6 foto şəkil.

Rusiya Federasiyasının ərazisində artıq təhsil alan tələblərə təhsilin başa çatmasına qədər Rusiyada qalmaq imkanı verilir. Bundan başqa, federal qanununa daxil edilmiş dəyişikliklər xarici vətəndaşların Rusiyada müvəqqəti qalmağın müddətinin uzadılmasını nəzərdə tutur, hansılar ki, hazırlıq bölməsində təhsili bitirdilər və başqa təhsil təşkilata qəbul olundular. İndi onlara Rusiya Federasiyasından çıxmağa ehtiyac yoxdur. Qəbul edən tərəfin vəzifələri belə xarici vətəndaşları qəbul edən təhsil təşkilatına həvalə edilir. Yəni ali məktəb miqrasiya sahəsində federal icra hakimiyyəti orqanının ərazi orqanına xarici vətəndaşın müvəqqəti qalmağın müddətinin uzadılması haqqında xahişini özü təqdim edir.

Rusiyada təhsil almanın xarici tələbələr üçün vacib şərtlərindən biri rus dilinin bilməsidir. Onu bilmədiyi təqdirdə, tələbə təhsil müəssisələrinin hazırlıq fakultələrinə bir il müddətinə qəbul edilmiş ola bilər. Tədris ilinin sonunda buraxılış imtahanları keçirilir. Rusiyanın tam orta ümumtəhsil məktəbinin səviyyəsində oxuyan, imtahanları müvəffəqiyyətlə verənlər, hazırlıq fakultəsinin bitirilməsi haqqında şəhadətnamələri alırlar və ali məktəblərə seçilmiş ixsisas üzrə təhsil almağa göndərilirlər.

Dağıstan respublikasının aparıcı ali məktəbləri əsasında hazırlıq bölmələri açılmışdır:

**Dağıstan dövlət universiteti** xarici tələbələri beynəlxalq təhsil fakultəsinə qəbul edir, hansı ki, fakultə aşağıdaki fəaliyyət istiqamətlərini həyata keçirir:

- xarici ölkələrin ən hazırlıqlı gəncləri arasından təhsilin bütün formalarına əcnəbi tələbələrin qəbulunun təşkili;

- hazırlıq bölməsinə xarici vətəndaşların qəbulu planının və əsas fakultələrə tələbələrin, aspirantların, doktorantların və stajorların qəbulunun ümumi planının təşkili;

- əcnəbi tələbələrin qeydiyyatı üzrə işin təşkili;

- hazırlıq bölməsində xarici vətəndaşların ali məktəbə qədər hazırlığının təşkili və s.

Daha ətraflı məlumat üçün ünvan üzrə müraciət etmək olar: Maxaçkala şəh., Batıraya küç. 2-a.

tel: (8722) 56-20-90, 56-20-86

E-mail: cmdp@yandex.ru

www.cmdp.dgu.ru

**Dağıstan dövlət texniki universitetində** beynəlxalq əməkdaşlığın İdarəsi fəaliyyət göstərir, onun əsas məqsədləri xarici vətəndaşları universitetdə təhsilə cəlb edilməsi, təhsilin və (və ya) ixtisaslaşdırmanın qarşılıqlı tanınmasının təminatında kömək, təhsil və (və ya) ixtisaslaşdırma haqqında sənədlərin təsdiq etməsinin qaydasının məsələləri üzrə konsultasiyalar, həmçinin xarici dövlətdə əldə edilmiş təhsilin və (və ya) ixtisaslaşdırmanın tanınması proseduru.

İdarənin tərkibində fəaliyyət göstərir:

- Pasport viza kontrolu və marketinq xidməti;
- Ali məktəbə qədər hazırlığın və xarici vətəndaşların adaptasiyası xidməti.

Əlaqə: Maxaçkala şəh., İ.Şamilya pr., 70

tel: 8(8722) 62-45-19; +7 (988) 432-59-79

E-mail: dicd@dstu.ru

www.dstu.ru

**Dağıstan dövlət pedaqoji universiteti**, beynəlxalq əlaqələri

bölməsi vasitəsilə xarici tələbələrin cəlb edilməsiylə məşğul olur.

Universitetin beynəlxalq fəaliyyətinin əsas istiqamətləri:

- təhsilin əldə edilməsi üçün xarici vətəndaşların cəlb edilməsi, həmçinin universitetin əsas ixsisasları üzrə xarici tələbələrin hazırlığı;
- Rusiya üzrə və xaricdə universitetin təhsil və elmi xidmətlərinin reklamı;
- ali təhsil sahəsində işləyən dövlət və beynəlxalq təşkilatlarla yaradıcılıq əlaqələrinin qurulması;
- beynəlxalq təhsil layihələri və s. çərçivəsində tələbələrlə və müəllimlərlə mübadilə.

Əlaqə: Maxaçkala şəh., M. Yaraqskoqo küç., ev 57

tel: +7 (8722) 78-12-96 E-mail: oms-dgpu@mail.ru

www.dgpu.net/ru

**Dağıstan dövlət tibb universitetində** hazırlıq bölməsinin kursu ilə yanaşı Rus dili kafedrası açılmışdır. Kafedrada xarici vətəndaşlar üçün hazırlıq bölməsinin dinləyiciləri və müalicə və stomatoloji fakultələrin I-V kurslarının əcnəbi tələbələri təlim keçirlər. Biliklərin, cari, aralıq və yekun kontrol formasında danışıq bacarıqlarının və tələbələrin bacarıqlarının formallaşması səviyyəsinin yoxlaması həyata keçirilir.

Həmçinin kafedra üç elmi istiqaməti reallaşdırır:

- rus dili xarici dil kimi ;
- Rusiya tibbi ali məktəbində təhsilə xarici tələbələrin psixoloji-pedaqoji, sosiomədəni və dilçilik adaptasiyası;
- qafqaz dilləri.

Əlaqə: Maxaçkala şəh., Lenina pr.,1

tel: 8 (8722) 63-22-02; +7 (988) 309-56-47

E-mail: israf@yandex.ru

## Xarici vətəndaşlara tibbi xidmətin göstərilməsi

RF müvəqqəti işləyən əcnəbilərin və müvəqqəti yaşayan və ya müvəqqəti işləməyən əcnəbilərin tibbi təminatı onlarda aşağıdaki hüquqların mövcudluğunu nəzərdə tutur:

- İlk yardımın uyğun olan hazırlığa malik olan şəxslər tərəfindən (Rusiya Federasiyasının daxili işlər orqanlarının əməkdaşları tərəfindən, Dövlət yanğına qarşı xidmətinin işçiləri tərəfindən və başqa şəxslər tərəfindən) pulsuz alması hüququ, hansı ki, bədbəxt hadisələr zamanı təcili tibbi yardımın göstərilməsinə qədər təklif edilir, həyatı və sağlamlıq üçün təhlükəli travmalar, zəhərlənmələr və başqa hallar və xəstəliklər onu qanun üzrə və ya xüsusi qayda üzrə göstərməlidir.
- Təcili tibbi yardım səhiyyənin dövlət və bələdiyyə sisteminin müalicə-profilaktik müəssisəsilərin tibbi işçiləri tərəfindən həyatın bilavasitə təhlükəsini təqdim edən və ya təcili tibbi müdaxiləni (bədbəxt hadisələr zamanı, travmalar, zəhərlənmələr və başqa hallar və xəstəliklər) tələb edən hallar zamanı göstərilir.
- İcbari tibbi sığorta üzrə tibbi yardım alma hüququ.

Xarici vətəndaşlar, hansılar ki, uzun müddətdir Rusiyaya gəliblər və leqal olaraq ölkədədirlər, həmçinin Rusiyanın ərazisində müvəqqəti çalışan AAİƏ dövlətlərin xarici vətəndaşları, OMSi polisini rəsmiləşdirmək plan və təcili tibbi yardımı RF ərazilərinə OMS baza və ərazi proqramlarıyla nəzərdə tutulmuş həcmdə pulsuz alma hüququna malikdirlər.

Qalan xarici vətəndaşların kateqoriyaları üçün könüllü tibbi sığorta polisin rəsmiləşdirilməsi nəzərdə tutulmuşdur.

Qanunvericiliyə əsasən, əcnəbilər üçün tibbi polislər ölkədə

qaldıqları birinci gündən hər bir xarici vətəndaşın alması lazımdır.

Yəni könüllü tibbi sığorta polisi xarici vətəndaş məcburi surətdə məhz ölkəyə gəlmə günündə Rusiya Federasiyasının ərazisinə girişin məqsədlərindən asılı olmayaraq rəsmiləşdirməlidir.

Bu halda xarici vətəndaşlar üçün Rusiya Federasiyasının ərazisində əcnəbinin qaldıqları bütün müddət üçün İTS rəsmiləşdirmək lazımdır.

Xarici vətəndaşlara tibbi sığorta polisini rəsmiləşdirmək üçün lazım olacaq sənədlər:

- şəxsiyyəti təsdiqləyən pasportun və ya başqa sənədin surəti
- miqrasiya kartının surəti

Dağıstan respublikasında İTS polisini **«MAKS-M»** SC bölməslərin birində almaq olar:

Ünvanlar: Maxaçkala şəh., Laptiyeva küç., 55-a; Maxaçkala şəh., İmama Şamilya pr., 36L; Maxaçkala şəh., Radişeva küç., 3

tel.: 8 (800) 555-88-03; 8 (872) 267-17-56

## Xarici vətəndaşların polis ilə qarşılıqlı əlaqələri

Polis əməkdaşları ictimai qaydalarını qoruyub insanların milliyyətindən, etnik, dini mənsubiyyətindən asılı olmayaraq onların hüquqlarına və azadlıqlarına riayət etməlidir.

Aşağıdaki hallarda polisə müraciət etmək lazımdır:

- nə vaxt ki, öz həyatını, sağlamlığı, hüququnu və azadlığını qorumaq lazımdır;
- nə vaxt ki, cinayətin qarşısını almaq, ictimai asayişi bərpa etmək və ya ictimai təhlükəsizliyi təmin etmək tələb olunur;
- nə vaxt ki, öz mülkiyyətini qorumaq lazımdır.

Polislər vətəndaşların şəxsiyyətini təsdiqləyən sənədləri yoxlamaq hüququna malikdirlər, əgər bu vətəndaşları barəsində inzibati qanun pozuntusu haqqında işin qaldırmasına səbəb varsa, həmçinin əgər onların saxlanması üçün əsasları varsa; vətəndaşlarında müəyyən hərəkətlərin edilməsinə icazələri və ya fəaliyyətin müəyyən növünün həyata keçirilməsinə və kontrolu (nəzarəti) polisə («Polis haqqında» Qanunun 13 m. 2 h.) qanuna əsasən həvalə edilib.

Bununla əlaqədar olaraq xarici vətəndaşın həmişə yanında olmalıdır:

- pasport;
- miqrasiya kartı;
- miqrasiya uçotuna (qeydiyyata) götürülməsi haqqında xəbərdarlıq;
- ödəniş haqqında qəbzlərlə iş patenti (AAİƏ dövlətləri vətəndaşlarından başqa - Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan);

- qüvvədə olan könüllü (KTS) və ya icbari (İTS) tibbi sığorta polisi.

Bu sənədləri yalnız öz xidməti vəzifələrini icrası vaxtı polis əməkdaşları yoxlamaq hüququna malikdirlər. Bu halda polis öz rütbəsini, vəzifəsini, soyadını bildirməlidir, öz vəsiqəsini təqdim etmək və səbəbi və sənədlərin yoxlamasının məqsədini izah etməlidir.

Bilmək lazımdır ki, səbəbin izahı olmadan sənədləri yoxlamaq olmaz.

əməkdaşları aşağıdaki hallarda əşyaların şəxsi baxışını keçirmək hüququna malikdirlər:

- Dəmir yolu stansiyalarında aeroportlarda və s. sərnişinlərin yoxlaması vaxtı. Şəxsi yoxlama vaxtı yoxlama protokolu mütləq tərtib edilir. Şəxsi yoxlama hüquq-mühafizə orqanlarının əməkdaşı olmayan iki şahid iştirakı ilə keçirilir. Əgər axtarış vaxtı sizə aid olmayan əşyalar aşkar edilməmişdirsə, onlara toxunmayın və onlar haqqında polis əməkdaşına bildirin.
- Əgər saxlanmış şəxslərdə silah, döyüş sursatları, partlayıcı maddələr, narkotiklər, zəhərli və ya radioaktiv maddələr olma ehtimalı varsa.

## Rusiyada və Dağıstan Respublikasında xarici vətəndaşların adaptasiyası

Miqrantın adaptasiyası – xarici vətəndaş tərəfindən və ya vətəndaşlığı olmayan şəxs tərəfindən ona mövcud cəmiyyətdə hərəkət etməyə və qəbul edilən sosial normaların və dəyərlərin nümunələrini, bilikləri və ya davranışın müvəffəqiyyətli mənimsəməsi prosesinə olmağa icazə verən bacarıqlardır. Adaptasiya miqrant tərəfindən rəsmi statusun almasıyla və onun qalmağının qanuniləşməsiylə sıx bağlıdır. Bu halda bilmək lazımdır ki, xarici vətəndaşın uğurlu adaptasiyası aşağıdaki istiqamətlərdə ifadə edilir:

- hüquqi adaptasiya/inteqrasiya (qanuni statusa daxil olma təminatı);
- iqtisadi adaptasiya/inteqrasiya (əmək bazarına giriş, məşğulluğun təminatı, yaşayış yerinə giriş);
- sosial adaptasiya/inteqrasiya (yaşayış yerinə, səhiyyəyə, təhsilə və s. giriş);
- mədəni adaptasiya/inteqrasiya (dilin öyrənilməsinə giriş, öz mədəniyyətinin saxlanılmasının imkanı vaxtı mədəniyyətin başqa elementləri, dinlər, adətlər).

Yaşadığı ölkəsinin dilinin bilməsi qəbul edən cəmiyyətdə miqrantın uğurlu adaptasiyasının əsas şərtidir. Məhz rus dilinin biliyi Rusiyada işə düzəltmənin qaydaları haqqında informasiyanın alınmasına imkan verir, qeyri-formal məşğulluğa cəlb etmənin şanslarını azaldır. Rus dilinin bilməsi yerli əhaliylə əlaqələrin imkanlarını genişləndirir, miqrantın ictimai-iqtisadi hüquqlarının (peşəkar təhsilə, tibbi yardımın alınması və s.) reallaşdırmasını təmin edir.

Rusiya Federasiyasında işə düzəltmə üçün gəlmiş MDB ölkələri vətəndaşlarının mədəni-dil adaptasiyasının infrastrukturu qüvvədədir – iş patentlərin rəsmiləşdirilməsi vaxtı xarici işçilərin bu kateqoriyası rus dilinin, tarixin və Rusiya Federasiyasının qanunvericiliyinin biliyini təsdiq etməlidir, həmçinin ixtisaslaşdırılmış mərkəzlərdə yoxlamadan keçməlidirlər.

Bu məqsədlər DQU əsasında üçün Dağıstan respublikasında «Rus dili, Rusiyanın tarixi və Rusiya Federasiyasının qanunvericiliyinin əsasları üzrə xarici ölkələr vətəndaşlarının yoxlanması mərkəzi» işləyir. O iki istiqamət üzrə yoxlamanın keçirilməsini təmin edir:

- MYİ, DYİ və patent
- Vətəndaşlıq

Həmçinin Mərkəz məlumat vermə və yoxlama məsələləri üzrə xarici vətəndaşlara məsləhət verir,  dövlət nümunəli sertifikatlarının qediyyatını və verilməsini həyata keçirir.

Mərkəzin əlaqə məlumatları: Maxaçkala şəh., Batıraya küç., 1

tel.: +7 (989)878-79-07

DR ərazisində xarici vətəndaşların sosiomədəni adaptasiyası məsələləriylə **DR Milli siyasət və dini işlər üzrə nazirliği məşğul olur.**

Xarici vətəndaşların müraciətlərinə operativ münasibət göstərmə üçün ekstremizmə, millətlərarası və dinlərarası düşmənçiliyin alışdırmaları üzrə əks təsirlər məsələləri üzrə

«Qaynar xətt» açılıb: +7 (8722) 68-16-64

Nazirliyin saytında (http://minnacrd.ru/) miqrasiya məsələləri üzrə aktual informasiya və normativ-hüquqi bazanı tapmaq olar, xüsusilə miqrantların sosiomədəni adaptasiyası və xarici vətəndaşların

inteqrasiyası və həmyerlilərlə iş məsələləri üzrə; qeyd edilmiş və qeyd olunmamış miqrantların sayı haqqında strukturlaşmış məlumatları almaq olar.

## Xarici vətəndaşlara pulsuz kömək və hüquqi dəstəyi göstərən dövlət və ictimai təşkilatlar

RF ərazisinə giriş vaxtı xarici vətəndaş rastlaşan birinci dövlət təşkilatı sərhəd xidmətləridir. Dağıstan respublikası üzrə - bu **DR üzrə RF Federal təhlükəsizlik xidmətinin Sərhəd idarəsidir.**

Xarici vətəndaşlar üçün xidmətlərin əlaqə məlumatları:

- ümumi məsələlər üzrə: +7 (8722) 98-86-00;
- RF dövlət sərhədinin keçməsi məsələləri üzrə:
  +7 (8722) 51-22-37; +7 (8722) 51-24-69; +7 (8722) 51-22-50;
- sərhəd zonasına şəxslərin və nəqliyyat vasitələrinin girişi (keçməsi) üçün buraxılışların verilməsi məsələləri üzrə:
  +7 (8722) 98-86-08;

Sahə sərhəd orqanlarının ərazisi (məsuliyyət zonası), həmçinin dövlət sərhədinin buraxılış məntəqələri:

- Hava buraxılış məntəqəsi Maxaçkala;
- Dəniz buraxılış məntəqəsi Maxaçkala;
- Avtomobil buraxılış məntəqələri: Qarax, Yaraq-Kazmalyar, Novo-Filya, Taqirkent-Kazmalyar;
- Dəmir yolu buraxılış məntəqəsi Dərbənd.

**DR üzrə sərhəd xidmətin ünvanı**: Kaspiysk şəh., Poqraniçnaya küç., ev 1

RD xarici vətəndaşların məsələlərini həll edən əsas orqan **Dağıstan Respublikası üzrə DİN miqrasiya məsələləri üzrə İdarəsidir.**

Burada xarici vətəndaş tam məlumat ala bilər, həmçinin bilavasitə qeydiyyata dura bilərlər; iş icazəsini, və ya patenti ala bilər; RF müvəqqəti yaşayış icazəsini ala bilərlər; Rusiya Federasiyasında girişə

dəvəti ala bilərlər; vizanı, yaşayış üçün sənədi uzada və ya bərpa edə bilərlər və s.

İdarənin saytında həmçinin yuxarıda göstərilən xidmətlərin əldə edilməsi üçün lazım olan bütün sənədlərin nümunələrini tapmaq olar.

İdarənin əlaqə məlumatları:

- vətəndaşlıq məsələləri üzrə +7 (8722) 99-55-62;
- xarici vətəndaşın qeydiyyatı məsələləri üzrə +7 (8722) 99-55-36;
- iş icazəsinin əldə edilməsi məsələləri üzrə +7 (8722) 99-60-24;
- dəvətin rəsmiləşdirilməsi məsələləri məsələləri üzrə +7 (8722) 99-55-60;
- yaşamaq üçün sənədin rəsmiləşdirilməsi +7 (8722) 99-55-58.

**İdarənin ünvanı:** Maxaçkala şəh., Abubakarova küç., 115a

**Qaynar xətt:** +7 (8722) 99-60-20

Miqrantların işə düzəltməsində sosial dəstəyi və köməyi **Əmək və sosial inkişaf nazirliyi göstərir.** Ünvan: Maxaçkala şəh., Abubakarova küç., 117; +7 (8722) 64-15-04

**Qaynar xətt: +7 (8722) 67-94-43**

e-mail: mintrud@e-dag.ru Sayt: https://dagmintrud.ru/

Bundan başqa, gənc miqrantların işə düzəltməsində **«Uğur» məşğulluq Respublika gənclər mərkəzi» DR DBİ xidmət** göstərir.

Ünvan: Maxaçkala şəh., Abubakarova küç., 117

tel.: +7 (8722) 63-84-83

Sayt: www.uspehrd.ru

DR ərazisində diasporalar və icmalar işləyir, hansılar ki, miqrantlara sosial dəstəyi göstərirlər:

- **Dağıstanda gürcülərin icması**

Rəhbəri: Berikaşvili Anzor Nikoyeviç
geo.diaspora@mail.ru

- **«Erməni mədəni-tarixi cəmiyyəti Ayk»** həmvətənlilərlə əlaqə üzrə

Rəhbəri: Sarkisyan Karen Rafaeloviç

- **«Maxaçkala şəhərinin Azərbaycanlılarının Yerli milli mədəni muxtariyyəti» İctimai təşkilatı**

Rəhbəri: Əzizov Rakif Abbas-Oğlu

- **Özbək icması**

Rəhbər: İbrahimov Mansurbek Ruzmetoviç
uz.dag05@mail.ru

- **Azərbaycan icması «Djaro-Balakən həmyerlilər birliyi»**

Rəhbəri: Maqomedov Omar İbraqimdibiroviç

- **İran icması**

Rəhbəri: Məhəmməd-zadə Nuri Qasanaqayeviç

- **Türkmən icması**

Rəhbəri: Aqavelyan Roksana Arturovna
rassvet.92@mail.ru

## Pulsuz konsultasiya və hüquqi köməyin əldə edilməsinin qaydaları

Yuxarıda göstərilən dövlət təşkilatlarıyla yanaşı, pulsuz konsultasiya və hüquqi dəstəyi «DR dövlət və bələdiyyə xidmətlərinin təqdim edilməsi üzrə çoxfunksiyalı mərkəzin» DR DİM  xidmət göstərir.

Mərkəzdə xarici vətəndaş və vətəndaşlığı olmayan şəxs ətraflı informasiyanı ala bilər və həmçinin xəbərdarlığın qəbulu haqqında qeydin bəyan edilməsinin yerinə xarici vətəndaşın və ya vətəndaşlığı olmayan şəxsin gəlməsi haqqında xəbərdarlığın qəbulu hissəsində Rusiya Federasiyasında miqrasiya hesabını həyata keçirməsi kimi bilavasitə xidmətlər alabilərlər.

ÇFM (www.mfcrd.ru) saytında müraciət üçün ən yaxın filialı, həmçinin əlaqə informasiyasını tapmaq olar.

Filialların ünvanları:

Maxaçkala şəh.

- Nasrudinov pr-ti, 1; tel.: +7 (872) 266-69-99
- Radişeva küç., 3«b»; tel.: +7 (872) 269-99-61
- Qadjiyeva küç., ev 73; tel.: +7 (938) 777-82-48

Kaspiysk şəh., Ordjonikidze küç., ev 3; +7 (938) 205-00-05

Dərbənd şəh.,345 Daqestanskoy Strelkovoy Divizii küç., ev8 «Q»; tel.:+7 (938) 777-82-57

İzberbaş şəh., Buynakskoqo küç., ev 109/1;
tel.: +7 (938) 777-82-98

Buynaksk şəh., Kumuxskoqo küç., ev 67/2;
tel.: +7(938) 777-82-73

Kizlyar şəh., Lenina küç., ev 3; тел.: +7 (938) 777-82-60
Xasavürt şəh., Daibova küç., ev 27»A»; +7 (938) 777-82-44

## Xarici vətəndaşlar üçün dövlət elektron resursları

RF ərazisinə çatan xarici vətəndaşların rahatlığı üçün Dövlət xidmətlərinin və funksiyaların vahid portalı işləyir -www.gosuslugi.ru

Saytda əldə oluna bilən dövlət xidmətləri:

- RF müvəqqəti yaşayış icazənin alınması;
- RF yaşamaq üçün sənədin alınması;
- Əmək patentinin və iş icazəsinin alınması;
- Rusiya Federasiyasının vətəndaşlığının alınması.

Bundan başqa, portalda xarici vətəndaşlar üçün tibbi yardım haqqında ətraflı informasiya təqdim edilmişdir; FŞHSN alınmasının qaydaları haqqında; miqrasiya uçotu haqqında və xidmətlərin başqa növləri. Həmçinin burada əmək haqqı üzrə konsultasiyanı almaq olar.

Saytın xidmətlərinə tam girişin əldə etməsi üçün qeydiyyat lazımdır, hansını ki, telefondan və elektron poçtdan istifadə edərək keçmək olar.

Xarici vətəndaşların qeydiyyatı prosesi aşağıdaki mərhələlərdən ibarətdir:

1. Sadələşdirilmiş hesabın qeydiyyatı. Mobil telefon və elektron poçt kifayətdir;
2. İstifadəçinin profilinin doldurulması, məlumatların yoxlamasının prosedurunun inisiyasiyası. Xarici vətəndaşın və FŞHSN sənədi sizə lazım olacaq. Məlumatların uğurlu yoxlaması halında hesabı standarta keçirir;
3. Mümkün üsullardan birinə şəxsiyyətin təsdiq etməsi, bunun nəticəsində də istifadəçinin hesabı təsdiq edilmiş olur.

Həmçinin xidmət mərkəzlərindən birində istifadəçinin qeydiyyatı

mümkündür – bu halda təsdiq edilmiş hesab dərhal yaradılacaq.

**Dövlət statistikasının Federal xidməti** xarici vətəndaşlar üçün daha bir əhəmiyyətli informasiya mərkəzidir. İdarənin **(www.rosstat.gov.ru)** saytında gəlmiş və azalmış xarici vətəndaşların sayı haqqında ətraflı informasiyanı almaq olar, əcnəbilərin iştirakıyla hadisələrin ayrılmasıyla təbii hərəkətin statistikasını.

Russtata vaxtaşırı əmək miqrasiyası üzrə hesabatlar daxil olur, məcburi miqrantlar üzrə hesabatlar, vətəndaşlığın ölkələri, məqsədləri və nəqliyyat növləri üzrə girişlərin və getmələrin statistikası, viza statistikası və s. Bu məlumatlar əsasında kompleks statistik informasiya formalaşdırılır.

## Dağıstan Respublikasında davranışın etikası

RF olan hər bir xarici vətəndaş bu ölkənin ənənələrinə riayət etməlidir və qanunlara hörmət etməlidir.

Bəzi ümumi etik normaları və davranışın qaydalarını ayırmaq olar, hansılar ki, riayət etmək lazımdır:

- Spirtli içkilərinin içilməsi və ictimai yerlərdə siqaret çəkmə, həmçinin təyin olunmamış yerdə zibilin atılması inzibati məsuliyyətə səbəb olur;
- Yolu yalnız icazə verilmiş yerlərdə keçmək lazımdır - işıqforlarda və piyada keçidlərində;
- Yanında pasport, miqrasiya kartını gəzdirmək tövsiyə edilir;
- İctimai nəqliyyatda məhdud imkanlı insanlara, hamilə qadınlara və uşaqlara, yaşlılara yer vermək;
- «Bütün küçə üzrə» gülmək, qışqırmaq, mübahisə etmək, qeyri-normativ leksikadan istifadə etmək lazım deyil, bütövlükdə özünü ədəbsiz aparmaq və özünə öz davranışıyla diqqəti cəlb etmək. Yerli sakinlərə hörmətlə yanaşmağını məsləhət görürük, xüsusilə yaşlı nəsilə;
- İctimai nəqliyyatda reng verən, iti, kəsən alətlər və ya başqa srnişinləri incidəcək ya da bulaşdıracaq əşyaları daşımaq qadağandır.

Çoxmillətli ölkənin geniş ərazisində müxtəlif regionlar və müxtəlif sosial qruplar üçün etiketin müəyyən normaları qüvvədədir. Xüsusi halda, Dağıstanda etik normaların spesifikası milli ənənələrə və dinə ehtiyatlı münasibətlə seçilir. Bütovlükdə, Dağıstanın bütün milliyyətləri üçün aşağıdakı tipik davranışın ümumi qaydalarını ayırmaq olar:

- böyüklərə hörmətli münasibət;

- qonaqpərvərlik;
- təvazökarlıq və az danışmaq;
- ailə dəyərlərinin dominantlığı.

Beləliklə, əgər Rusiya ərazisində xüsusən Dağıstan Respublikasında qəbul edilmiş müəyyən qayda və normalara riayət etdiyi təqdirdə xarici vətəndaş cəmiyyətə qarışacaq və özünü doğma ölkədəki kimi hiss edəcək.

# Qeydlər üçün

# Qeydlər üçün

# Qeydlər üçün